10 iyul / 2021

# Kürdəmirdə Nizami Gəncəvi və Yunus Əmrə irsinə dair tədbir keçirilib





İyulun 8-də AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran regional filialında Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşəbbüsü və dəvəti ilə türkiyəli alimərlə ortaq şəkildə "Nizami Gəncəvi və Yunus Əmrə irsinin tarixiliyi və müasirliyi" mövzusunda dəyirmi masa keçirilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı dəyirmi masanı açaraq qonaqları tədbir iştirakçılarına təqdim edib, dahi Azərbaycan şairi və mütəfəkkiri, bütövlükdə Şərq poeziyasının dühası Nizami Gəncəvinin ədəbi irsinin əhəmiyyətindən danışıb. F.Xudanlı şairin 880 illik yubileyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə ölkəmizdə 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsini çox mühüm hadisə kimi dəyərləndirib. O, Azərbaycan-Türkiyə ədəbi və mədəni əlaqələrinin genişlənməsindən də bəhs edib.

Sonra AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional filialının müdiri Yaqut Bahadurqızı "Nizami Gəncəvi yaradıcılığının Azərbaycan mədəniyyətinə təsiri", Regional İdarənin Xocavənd rayonu üzrə baş məsləhətçisi Ramil Əhmədov "Modern dünya ədəbiyyatında Nizami Gəncəvi təsirləri" mövzusunda çıxış ediblər. Dəyirmi masanın iştirakçısı, yazıçı-publisist Əlisəfa Azayevdə mövzu ətrafında öz fikirlərini bölüşüb.

Dəyirmi masanın qonaqları, İstanbul Universitetinin müəllimləri doktor Məhmət Samsakçı və Kaan Kapan çıxışlarında Nizami Gəncəvi və Yunus Əmrənin yaradıcılığında üstünlük təşkil edən hikmətlərə toxunublar.

Tədbirdə İmişli rayon Mədəniyyət mərkəzinin hazırladığı, Nizami Gəncəvi yaradıcılığına həsr olunan musiqi və qiraət proqramı təqdim edilib.

Sonda filialın müdiri qonaqları muzey ekspozisiyası - xüsusi ilə Nizami guşəsi ilə tanış edərək onlara nadir eksponatlar haqqında ətraflı məlumat verib.